# QAYNAR XƏTT XİDMƏTİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

2012-ci ildə Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə (telefon: 146; elektron poçt ünvanı: mailto:qaynar-xett@edu.gov.az) 15463 müraciət daxil olub.

Müraciətlərin böyük əksəriyyəti, 14812-si (95,8 faiz) sorğu, 651-i isə (4,2 faiz) şikayət xarakterlidir.

"Qaynar xətt" xidmətində yanvarda 1441, fevralda 1629, martda 1629, apreldə 1265, mayda 1055, iyunda 1073, iyulda 2385, avqustda 1196, sentyabrda 1441, oktyabrda 974, noyabrda 613, dekabrda isə 762 müraciət qeydə alınıb.

"Qaynar xətt" xidmətinə daxil olan çoxsaylı müraciətlərin təhlili göstərir ki, təhsil sahəsində həyata keçirilən islahatlarla geniş ictimaiyyət yaxından maraqlanır. Belə ki, bütün sorğuların təxminən 70 faizindən çoxu ümumi təhsil məktəblərində müəllimlərin işə qəbulu üzrə mərkəzləşdirilmiş imtahanların təşkili, keçirilməsi və nəticələri ilə əlaqədar olub. Digər sorğularda hazırda təhsil sistemində həyata keçirilən proqramlar, beynəlxalq layihələr, ölkə və beynəlxalq fənn olimpiadaları, təhsil sisteminin maliyyələşdirilməsi, xaricdə təhsil, əlavə təhsil, ayrı-ayrı təhsil pillələrinə qəbul, ümumi təhsil məktəblərinin buraxılış siniflərində, ali və orta ixtisas təhsili müəssisələrində yeni qiymətləndirmə sistemi ilə bağlı sorğular üstünlük təşkil edib. Başqa bir qism sorğularda təhsil sənədlərinin alınması, nostrifikasiyası, fənn olimpiadalarının təşkili, keçirilməsi və nəticələrinin öyrənilməsi ilə əlaqədardır.

Bir sıra sorğularda bütün pillələr üzrə təhsilin təşkili və idarəedilməsi, xaricdə təhsil, müəllimlərin işə qəbulu və əmək müqaviləsi bağlanmasının qaydaları, dərs yükü, əmək haqqının hesablanması, təhsil sənədlərinin alınması və tanınması, məktəbəqədər, ümumi, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələri ilə əlaqədar məsələlər öz əksini tapıb.

Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə daxil olan bütün sorğular diqqətlə dinlənilərək cavablandırılıb. Şikayət xarakterli müraciətlər isə Nazirliyin müvafiq şöbələri və aidiyyati struktur bölmələri tərəfindən araşdırılıb.

2012-ci ildə "Qaynar xətt" xidmətinə daxil olan müraciətlərin 651-i şikayət məzmunlu olub. Həmin şikayətlər ümumi, texniki peşə, orta ixtisas, ali təhsil və məktəbdənkənar təhsil müəssisələri ilə bağlıdır. Bu qəbildən olan müraciətlərin əksəriyyəti ümumi təhsil müəssisələrindəndir. Belə ki, Bakı, bir qismən isə Sumqayıt, Gəncə və Şirvan şəhərlərindən daxil olan şikayət xarakterli müraciətlər əksəriyyət təşkil edir. Eyni zamanda Abşeron, Goranboy, Xaçmaz, Gədəbəy, Şəki, Qəbələ, Saatlı, Şamaxı, Lerik, Astara, Masallı, Saatlı, Beyləqan, Ağdam, Göygöl, Lənkəran rayonlarından digər rayonlara nisbətən daha çox şikayət daxil olub. Müraciətlərdə ümumi təhsil müəssisələrində tədris prosesinin təşkili, maddi-texniki təchizat sahəsindəki çatışmazlıqlar, məktəbdaxili idarəetmədə yol verilən nöqsanlar və digər məsələlər öz əksini tapıb.

Digər müraciətlərdə texniki peşə təhsili müəssisələrində tədris prosesinin təşkili və idarəolunması, şagirdlərin təqaüdlərinin və müəllimlərin əmək haqqının gecikdirilməsi və s. məsələlərdən bəhs olunur.

Ali və orta ixtisas təhsili müəssisələrində 2011-2012-ci tədris ilinin qış və yay imtahan sessiyalarında tələbələrin biliyinin obyektiv qiymətləndirilməsinin təmin edilməsi, yarana biləcək neqativ halların aradan qaldırılması məqsədilə "Qaynar xətt" xidmətinə müraciətlər edilib. Müvafiq məsələlərlə əlaqədar "Qaynar xətt" xidmətinə və Təhsil Nazirliyinin Korrupsiyaya qarşı mübarizə üzrə işçi qrupuna 2012-ci ilin yanvar və iyun aylarında daxil olan

müraciətlər nazirliyin əməkdaşları tərəfindən, həmçinin bir sıra qeyri-hökumət təşkilatlarının könüllülərinin iştirakı ilə araşdırılıb.

Ali və orta ixtisas təhsili müəssisələrində 2011-2012-ci tədris ilinin qış və yay imtahan sessiyaları dövründə özəl ali təhsil müəssisələri ilə əlaqədar daxil olan müraciətlərin sayı dövlət ali və orta ixtisas məktəblərindən daxil olan ünvanlı şikayətlərdən daha çox olub. Fəaliyyəti dayandırılmış özəl ali təhsil müəssisələri tələbələrinin köçürülməsi ilə əlaqədar bir sıra şikayət xarakterli müraciətlər qəbul edilib.

Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə daxil olan bütün müraciətlər əsasında aparılmış araşdırmalar nəticəsində nöqsanı olanlar tənbeh edilib, töhmət verilib, eləcə də digər inzibati cəzalar tətbiq olunub. İşində nöqsan aşkarlanmış təhsil müəssisəsi rəhbərlərinə müvafiq tapşırıqlar verilib. Belə ki, araşdırma aparılan bir sıra ümumi təhsil müəssisələrinin direktorlarına rəhbərlik etdikləri məktəblərdə mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması, əmək intizamına nəzarətin artırılması tövsiyə olunub.

Qeyd etmək lazımdır ki, araşdırmalar zamanı yenə də xeyli sayda müraciətdə ad, soyad, telefon nömrəsi göstərilsə də, onların anonim olduğu aşkarlanıb, başqa bir qisim müraciətdə qeyd olunan faktlar öz təsdiqini tapmayıb.

2012-ci il ərzində "Qaynar xətt" xidmətinə daxil olan müraciətlər və aparılan araşdırmaların nəticələri barədə məlumatlar müntəzəm olaraq Təhsil Nazirliyinin internet saytında, "Azərbaycan müəllimi" qəzetində, "Təhsil xəbərləri" məcmuəsində və digər mətbu orqanlarda dərc olunub. Televiziya və radio kanallarında il ərzində "Qaynar xətt" xidmətinin fəaliyyəti ilə əlaqədar çoxsaylı xəbərlər verilib.